# ATƏT-in MİNSK QRUPU

## ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin görüşündən (4 noyabr 2001-ci il)

- Hörmətli qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Sizin Azərbaycana yenidən gəlməyinizdən, bugünkü görümümüzdən çox məmnunam. Ümidvar olduğumu bildirmək istəyirəm ki, yəqin böyük bir fasilədən sonra yenidən görüşərək, biz müəyyən qədər irəliyə gedə biləcəyik.

Sizin də, bizim də bir məqsədimiz var: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək. Mən dünən fikirləşdim ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin artıq 13 yaşı var. ATƏT-in Minsk qrupunun 9 yaşı var. Amma görün, neçə illər keçibdir, məsələ həll olunmayıbdır. Əgər bir az da ləngisək, ATƏT-in Minsk qrupu artıq böyük oğlan olacaq, gərək onu evləndirək. Yaxud ola bilər, qız olsun, onu ərə verək. Ona görə də biz düşünməliyik ki, bu yaşlar nə qədər artacaqdır.

Biz sizdən çox şeylər gözləyirik. Mən belə güman edirəm ki, siz də bizdən gözləyirsiniz. Ancaq hesab edirəm, siz də, biz də - dəfələrlə bunu danışmışıq, - gərək bütün qüvvələrimizi, səylərimizi qoyaq ki, nəhayət bu məsələni həll edək. Son vaxtlar, xüsusən sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarında baş vermiş dəhşətli terror hadisəsindən sonra dünyada çox böyük dəyişikliklər gedir. Ümumiyyətlə, son illərdə dünyanın iqlimini dəyişdirən beynəlxalq terrorizmdir. Beynəlxalq terrorizm də təcavüzkar separatizmlə çox sıx bağlıdır. Dünya bu dəhşətli hadisələrdən xilas olmalıdır. Əgər bu olmasa, onda gələcək daha da çətin olacaqdır. Bu baxımdan bizim region, yəni Cənubi Qafqaz regionu həqiqətən çox ağır vəziyyətdədir. Əgər iki Cənubi Qafqaz respublikası arasında 13 ildir münaqişə gedirsə və ATƏT kimi böyük hörmətə layiq beynəlxalq təşkilat Minsk qrupu yaradıbsa və 9 ildir bu qrup bir şeyə nail ola bilmirsə və biz də, yəni münaqişə tərəfləri də bu barədə bir razılığa gələ bilmiriksə, onda təbiidir ki, bu, çox narahatedici bir haldır. Bax, bunlara görə də biz sizinlə, yəni Minsk qrupunun həmsədrləri olan Rusiyanın, Amerika Birləşmiş Ştatlarının, Fransanın nümayəndələri ilə görüşləri həmişə çox səbirsizliklə və böyük ümidlərlə gözləyirik. Arzu edərdim ki, sizin bu səfəriniz zamanı heç olmasa, biz bir az irəliyə gedə bilək. Hamınızın birlikdə Azərbaycana gəlməyinizə görə sizə təşəkkür edirəm və sizi dinləməyə hazıram.

***Filipr de Sürmən***: Cənab prezident, Sizin tərəfinizdən qəbul olunmaq bizim üçün böyük şərəfdir. Sizə təşəkkür edirik ki, xüsusən bazar günü bizi qəbul etmisiniz.

***Heydər Əliyev***: Bizim üçün bazar günü yoxdur. Bu cür münaqişə şəraitində yaşayan xalq, millət üçün bazar günü ola bilməz.

***Filip de Sürmən***: Bilirəm ki, bu gün Sizin üçün istirahət günü deyildir. Amma Sizin əməkdaşlarınız və jurnalistlər üçün bu gün istirahət günü idi. Biz bu gün onları da bura səfərbər etmişik.

Mən mətbuat nümayəndələrinin burada iştirak etməsinə görə yenidən təkrar etmək istəyirəm ki, Sizin bizə göstərdiyiniz etimada görə biz özümüzü şərəfli hesab edirik. İndi qeyd etdiniz ki, Minsk qrupu artıq 9 ildir fəaliyyət göstərir. Biz bilirik ki, ictimai fikir, insanlar, xüsusən qaçqınlar bu münaqişədən nə qədər əziyyət çəkirlər. Mən Sizə bildirmək istəyirəm ki, bu sahədə qətiyyətimiz tamdır. Parisdəki, Ki-Uestdəki görüşlərdən sonra hər iki tərəfin xahişi ilə sülh danışıqlarına müəyyən qədər fasilə verilmişdi. Həmin görüşlər irəli getməyə imkan yaratdı. İndi biz bu baza əsasında işimizi davam etdiririk. Əgər bu fasilə verilmişdisə, o demək deyildir ki, Minsk qrupu işləmirdi.

Bu ilin iyul ayında Sizinlə çox faydalı görüşümüz oldu. Həmin görüşdən sonra Lissabonda müəyyən təklifləri hazırlamaq məqsədi ilə biz yenidən yığışdıq. Biz bu işdə öz dövlət başçılarımız tərəfindən də dəstəklənirik. ATƏT-in üzvü olan ölkələrin hamısının dəstəyini hiss edirik. Mən Avropa Birliyinin də dəstəyini qeyd edirəm. Ümid edirəm ki, biz Sizi məyus etməyəcəyik. Amma bilmək lazımdır ki, biz hər iki tərəfin mövqeyini yaxınlaşdırmaq üçün hər şeyi edirik. Məqsədimiz də ondan ibarətdir ki, iki dövlət başçısına imkan verək, çox da asan olmayan bir qərarı qəbul etsinlər.

Cənab prezident, Sizin qeyd etdiyiniz kimi, vaxt keçir və danışıqlar yolu ilə tapılacaq bir həll getdikcə daha vacib və təcili məsələyə çevrilir. Biz bu işi təxirə salsaq, işimizi heç də asanlaşdırmayacağıq.

Siz qeyd etdiniz ki, sentyabrın 11-də baş vermiş dəhşətli terror aktları dünyada çox şeyi dəyişdi. Tamamilə doğrudur ki, beynəlxalq mühit əvvəllər olduğu kimi deyildir. Hətta demək olar, qətiyyən eyni deyildir. Artıq yeni bir kontekst yetişibdir.

Mən arzu edərdim, baş vermiş dəhşətli aktlar bizə imkan versin ki, əməkdaşlığımızı və həmrəyliyimizi daha da gücləndirək, terrorizm adlandırdığımız bu pisliyə qarşı mübarizə aparaq. Həmçinin bu vəziyyət bizə imkan

versin ki, münaqişəni daha sürətlə həll edək. Düzdür, bu, çox nikbin əhval-ruhiyyədir. Amma mənim fikrimcə, etimadınızı doğrultmaq üçün çoxlu səbəblər vardır.

Sizin qeyd etdiyiniz kimi, gələcəyə baxmaq lazımdır. Məhz bu niyyətlə biz yenidən buraya gəlmişik ki, Sizinlə görüşək. Məncə, bir azdan bizim imkanımız olacaq ki, bu ideyaları daha da inkişaf etdirək. Amma indi əsas niyyət ondan ibarətdir ki, dinc iqlim yaratmaq lazımdır. Bu cəhətdən bu gün sər Azərbaycanda üç dini icmanın nümayəndələri ilə görüşümüz bizə çox böyük ümidlər verdi. Biz onların dedikləri fikirləri şəkk-şübhəsiz dəstəkləyirik.

Mənim burada təkcə danışmaq niyyətim yoxdur. İstəyirəm ki, sözü həmkarlarıma verim. Biz onlarla çox sıx əməkdaşlıq şəraitində işləyirik. Məqsədimiz də ondan ibarətdir ki, dövlət başçılarımızın bizə verdikləri təlimatı həyata keçirək. Bu təlimat isə tam səmərəli fəaliyyət göstərməkdən ibarətdir. Ümid edirik ki, bu region bir sülh regionuna çevriləcəkdir və dünyanın sabitliyinə öz töhfəsini verəcəkdir.

Cənab prezident, çox sağ olun.

***Heydər Əliyev***: Təşəkkür edirəm.

***Rudolf Perina (ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri)***: Cənab prezident, icazənizlə, bu gün görüşmək imkanı verdiyiniz üçün Sizə bir daha öz minnətdarlığımı bildirim. Biz Sizinlə ilk dəfə görüşərək, bu münaqişə barədə çox faydalı söhbət etdiyimiz vaxtdan, deyəsən, cəmi bir həftə keçmişdir.

***Heydər Əliyev***: Həm də çox sürəkli söhbət etdik.

***Rudolf Perina***: Bu müddətdə Minsk qrupu çərçivəsində Lissabonda məsləhətləşmələr aparmışıq. Mən həm də Vaşinqtonda oldum, orada müzakirələr apardım və Sizinlə söhbətimizin məzmunu və nəticələri barədə məlumat verdim. Bu gün biz buraya bir sıra ideyalarla gəlmişik, onları geniş tərkibdə müzakirə etdikdən sonra Sizinlə konkret sürətdə müzakirə edəcəyik. Hesab edirəm ki, bu ideyalar münaqişənin nizama salınmasında uğur qazanılmasına təkan verəcəkdir. Cənab prezident, zənnimcə, bizim hamımız Sizin ifadə etdiyiniz belə bir fikirlə razıyıq ki, bu münaqişə həddindən artıq çox uzanır və onu həll etmək vaxtı gəlib çatmışdır. Beləliklə, həm bizim ölkənin paytaxtı Vaşinqtonda, həm də, məncə, həmsədr ölkələrin paytaxtlarında bu münaqişənin təcili həllinin zəruriliyi barədə dəqiq təsəvvür var. Güman edirik ki, bu münaqişənin həllini gələcəyə saxlasaq, onda bu daha mürəkkəb və çətin olacaqdır. Biz həmçinin belə hesab edirik ki, bu münaqişənin hərbi yolla həlli yoxdur. Münaqişənin hərbi yolla həll ediləcəyi təqdirdə, onsuz da çox ciddi və güclü şəkildə zərər çəkmiş insanlar daha böyük və uzunmüddətli müsibətlərə məruz qalacaqlar.

Sentyabrın 11-də baş vermiş faciəli hadisələr yeni kontekst və eyni zamanda da münaqişənin nizama salınması üçün yeni imkanlar yaratmışdır.

Beləliklə, cənab prezident, biz bu gün buraya münaqişənin ədalətlə nizama salınması naminə Sizinlə, həm də münaqişəyə cəlb edilmiş bütün digər tərəflərlə qətiyyətlə, əzmkarlıqla işləmək hissləri ilə gəlmişik.

Bizə görüşməyə imkan verildiyinə görə Sizə bir daha öz minnətdarlığımı bildirirəm.

***Heydər Əliyev***: Sizə təşəkkür edirəm.

***Vyaçeslav Trubnikov (Rusiya Xarici İşlər nazirinin birinci müavini)***: Hörmətli Heydər Əliyeviç, Sizinlə görüşmək imkanına görə həmkarlarımın söylədikləri minnətdarlıq sözlərinə mən də qoşuluram.

Biz cari ildə bu regiona artıq üçüncü dəfədir gəlirik. Bu, bir tərəfdən, həm də onu göstərir ki, bizə tapşırılmış işə görə məsuliyyətimizin artdığını hiss edirik, digər tərəfdən isə, hiss edirik ki, vaxt sürətlə gedir və bizə tapşırılmış problemi həll etməli olduğumuz çox ağır məqam yəqin gəlib çatmaqdadır. Odur ki, ən başlıcası "nə müharibə, nə də sülh" şəraitinə son qoyulacağı vəziyyətə nail olmaqdır. Mən amerikalı həmkarımın söylədiyi sözlərlə tam şərikəm ki, bu problemin hərbi yolla həlli ola bilməz və olmamalıdır.

Dünyada yeni vəziyyət yaranmışdır, antiterror koalisiyasında, antiterror mübarizəsində ümumi iştirakla əlaqədar indi bizdə yeni məsuliyyət hissləri, yeni qarşılıqlı fəaliyyət hissləri baş qaldırmışdır. Bu hisslər həm də yeni imkanlar yaradır və istərdim ki, buraya bu səfərimiz, Sizinlə görüşümüz irəliyə doğru çox-çox ciddi addım olsun.

Siz Minsk qrupunun yaşından danışmaqda çox haqlısınız. Deyərdim ki, bu, ahıl yaş olmasa da, yetkinlik yaşıdır.

***Heydər Əliyev***: Tezliklə həddi-buluğ yaşı olacaqdır.

***Vyaçeslav Trubnikov***: Ona görə də həddi-buluğa çatmağımızı belə bir hisslə qarşılamaq istərdik ki, indi bu münaqişənin nəticələrindən zillət çəkən bütün insanlara sərfəli olacaq məsul, ciddi və ən başlıcası, yaxşı qərarlar qəbul etmək üçün həqiqətən yetişmişik. Demək istərdim ki, bu gün sər biz üç başlıca konsessiyanın, üç əsas dinin rəhbərlərinin yanında olduq. Bilirsinizmi, mən orada minnətdarlığımı bildirdim, dedim ki, siyasətçilər bir-birləri ilə ümumi dil tapmağı, bir-birlərini başa düşməyi bu üç konsessiyanın rəhbərlərindən öyrənə bilərlər. Buna ancaq həsəd aparmaq olar. Bu, bizim üçün çox yaxşı nümunədir və düşünürəm ki, iki ölkənin prezidentləri üçün də çox yaxşı nümunədir.

Odur ki, gəlin, sadə insanla, ölkə əhalisi ilə, ev-eşiyindən məhrum olanlarla, qaçqınlara çevrilənlərlə hər gün ünsiyyət saxlayan adamlara bir nəzər salaq. Bu gün baş xaxam çox düz dedi ki, qaçqınların vəziyyətinə baxmaq üçün gərək validol içəsən. Həqiqətən belədir.

Fəxr edirəm ki, indi Rusiya ərazisində 2 milyona qədər azərbaycanlı yaşayır. Bu, mənim üçün də şərəf və iftixar doğuran bir işdir ki, xalqımız onları ürəkaçıqlığı ilə qəbul edir. Lakin biz istərdik ki, həmin adamların buraya, Azərbaycana öz qohum-qardaşlarına maddi yardım göstərmələri ilə yanaşı, doğulduqları və yaşadıqları yerlərə qayıdıb gəlmək imkanları da olsun. Bax, bu gün biz əsas vəzifəmizi bunda görürük. Mən belə fikirləşirəm ki, Sizinlə görüşümüz irəliyə doğru mühüm addım atmağa imkan verəcəkdir. Çox sağ olun

***Heydər Əliyev***: Çox sağ olun, Vyaçeslav İvanoviç. Mən sizin belə bir ifadənizi çox yaxşı başa düşürəm ki, Minsk qrupu yetkinlik çağına gəlib çatmışdır. Biz artıq çoxdan yetişmişik, indi isə siz yetişmişsiniz. Əgər siz bu yetkinlik dövründə heç nə edə bilməyibsinizsə, əlbəttə, nikbinlik üçün heç bir əsas olmayacaqdır.

Hörmətli dostlarımız, hamınıza öz təşəkkürümü bildirirəm. Dediklərinizin hamısı ilə razıyam. Başlıcası, münaqişənin sülh yolu ilə nizama salınmasına nail olmaqdır. Azərbaycan prezidenti olaraq mən bu mövqelərdə möhkəm durmuşam və dururam. Şübhəsiz, bu məsələdə elə bir qərar tapmaq lazımdır ki, sizin həmişə dediyiniz kimi, bu qərar hər iki tərəfin mənafelərini eyni dərəcədə nəzərə alsın. Mən sizinlə razıyam. Amma məsələ bundadır ki, indiki halda tərəflərin mənafeləri uyğun deyildir. Çünki Ermənistan Azərbaycan ərazisini işğal etmişdir, bir milyon qaçqın ağır şəraitdə yaşayır, Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur. Ermənistan Azərbaycan ərazisinin bir hissəsinin ya Ermənistanla birləşdirilməsi, ya da ona müstəqillik statusu verilməsi iddiasındadır.

Bəs biz nə tələb edirik? Biz Ermənistanda heç nə işğal etməmişik, təbii ki, orada işğal olunmuş ərazilərdən didərgin düşmüş qaçqınlar yoxdur. Buna görə də hesab edirik ki, biz bu münaqişədə təqsirkar deyilik, çünki dinclik şəraitində birgə yaşayırdıq. Məsələn, Azərbaycanın qocaman sakini və uzun illər ərzində nəinki Azərbaycanda yaşamış, həm də Azərbaycan Respublikasının rəhbəri olmuş bir adam kimi mən bizim Ermənistanla Azərbaycanın necə mehriban yaşadığını, Dağlıq Qarabağda heç bir problem olmadığını yaxşı bilirəm. Dağlıq Qarabağ Azərbaycanın bir hissəsi idi, orada azərbaycanlılarla ermənilər dostcasına yaşayır, bir-birinə qonaq gedib-gəlirdilər. Bir-birinə qonaq gedib-gəlmək heç də təkcə orada deyildi. Bunu eynilə Bakıda da, başqa şəhərlərdə də müşahidə etmək olardı. Dağlıq Qarabağda əhalinin 30 faizini azərbaycanlılar təşkil edirdi, problemlər yox idi. Odur ki, biz Azərbaycanda, - mən münaqişənin məhz başlanğıc dövrünü deyirəm, qarşımıza qətiyyən münaqişə törətmək vəzifəsini qoymamışdıq. Biz belə yaşayırdıq və bu, bizi qane edirdi. Amma, sən demə, hansı mərhələdəsə bu, Ermənistanı qane etmirmiş. Buna görə də onlar bu cür separatçı qüvvələri qızışdırdılar, vəziyyət gərginləşdi və müharibəyə çevrildi.

Ona görə də burada zərər çəkmiş tərəf var - bu, Azərbaycandır. O mənada ki, onun ərazisi işğal edilmişdir, o mənada ki, azərbaycanlılar işğal olunmuş həmin ərazilərdən tamamilə qovulmuşlar. Lakin Ermənistan da müəyyən dərəcədə zərər çəkmişdir. Çünki müharibə başlanmışdır. Söz yox ki, müharibədə hər iki tərəf itkilər verir, qurbanlar olur, qan tökülür. Odur ki, ədalətli bir qərar, şübhəsiz, hər iki tərəfin mənafelərini nəzərə almalıdır. Buna baxmayaraq, tərəflərin mənafeləri bir-birinə əsla uyğun deyildir.

Budur, üç böyük dövlətin nümayəndələri, Minsk qrupunun nümayəndələri, ATƏT-in nümayəndələri olaraq, siz müəyyənləşdirməlisiniz ki, bu məsələnin həlli üçün Azərbaycan nə etməlidir, Ermənistan nə etməlidir. Məsələyə digər tərəfin iddialarının xeyrinə olaraq, hər hansı şəkildə biryönlü yanaşılması, təbii olaraq, bu məsələni həll etməyə imkan verməyəcəkdir. Azərbaycanın heç bir iddiası yoxdur. Azərbaycan işğal olunmuş ərazilərinin azad edilməsini istəyir, Azərbaycanın tərkibində Dağlıq Qarabağda mövcud olmuş qayda-qanunun bərpasını istəyir və Azərbaycan Ermənistanla sülh istəyir. Başqa heç nə. Bax, bizim arzumuz belədir, ayrı heç bir iddiamız yoxdur, biz Ermənistana qarşı heç bir ərazi iddiası irəli sürmürük. Ermənistanın iddiaları isə böyükdür, odur ki, siz bunu nəzərə almalısınız. Əgər bu, nəzərə alınmasa, onda, əlbəttə, münaqişənin həlli tapılmayacaqdır.

Siz dediniz ki, məsələnin həllinin hərbi yolu yoxdur. Mən bunu başa düşürəm. Lap əvvəldən də belə mövqe tutmuşam. Buna görə də 1994-cü ildə biz Rusiyanın vasitəçiliyi ilə Ermənistanla atəşin dayandırılması haqqında razılığa gəldik. Yeddi ildən çoxdur ki, hər hansı sülhyaratma qüvvələrinin iştirakı olmadan atəşkəs rejiminə əməl etməyimizin, zənnimcə, dünyada oxşarı yoxdur. Elə bunun özü göstərir ki, biz sülh istəyirik.

Əlbəttə, Ermənistan da sülh istəyir. Lakin biz sülh istəyirik, mən bunu xüsusi nəzərə çarpdırıram, çünki biz zərər çəkmişik. Ərazimiz işğal edilmişdir, adamlarımız çadırlarda ağır şəraitdə yaşayırlar. Biz böyük itkilər veririk, bununla belə, biz məsələnin dincliklə aradan qaldırılmasını istəyirik. Başqa halda, bəşəriyyətin minillik tarixinə çox müharibələr məlumdur, bir tərəf üstünlüyə nail olur, sonra da digər tərəf öz qüvvələrini toplayır və digər tərəfə hücum edir. Hər halda, belə hadisələr Avropada da, Rusiyada da baş vermişdir, bu baxımdan Amerika bəlkə də xoşbəxt vəziyyətdə olmuşdur.

Mənim yadımdan çıxdı, rus dilində danışdım. Görürsünüz, mən o qədər həyəcanlanıram ki, birincisi, avtomatik olaraq rus dilində danışdım, ikincisi, o qədər danışdım ki, tərcüməçiyə imkan vermədim. Bunlar

hamısı ondan irəliyə gəlir ki, mən həyəcanlıyam. Bu məsələni həll etmək lazımdır. Yəni rus dilində danışmaq elə bir şey deyil, təbiidir. Amma indi bizim bu danışığımızı televiziya, radio verəcəkdir. Gərək əhalinin hamısı mənim dediyim sözləri başa düşə bilsin.

Mən dedim ki, dünya tarixi çox müharibələrlə rastlaşıbdır. Dünyanın hər bir regionunda müharibələr olubdur, bəzən on, yüz illərlə davam edibdir. Xoşbəxtlik bir amerikalılarda olub ki, onlar öz ərazilərində başqa bir ölkə ilə müharibə aparmayıblar. Bir az özləri daxildə müharibə aparıblar, sonra da ona son qoyublar. Ancaq Fransa ilə Almaniya yüz il müharibə aparıbdır. Nə üçün? Çünki Fransa bir vaxt gəlib Almaniyanın torpağını tutmuşdu. Sonra Almaniya gücünü yığıb öz torpağını azad etmək üçün gedib Fransanın torpağını tutmuşdu. Bu, tarixin həqiqətləridir. Bunu onun üçün deyirəm ki, bir də təkrar edirəm, mən məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarıyam və bu mövqeyimi indi də saxlayıram. Amma bizim millətimiz, xalqımız isə buna artıq dözə bilmir. İndi get-gedə onlarda belə bir əhval-ruhiyyə yaranır ki, bir halda məsələ sülh yolu ilə həll olunmur, biz müharibə edək, ya tamamilə məhv olarıq, ya da torpaqlarımızı azad edərik. Bu fikirlərə də etiraz etmək olmaz.

Hörmətli Vyaçeslav İvanoviç bu gün dini icmaların başçıları ilə, üç konvensiyanın rəhbərləri ilə görüşü haqqında söylədi. Mən belə başa düşdüm ki, bu, bir nümunə kimi bizə deyilir. Həqiqətən də bu, çox yaxşı haldır. Ancaq iş bundadır ki, Azərbaycanda ayrı-ayrı dinlərə mənsub olan insanlar heç vaxt bir-biri ilə müharibə etməyiblər. Azərbaycan tarixən çoxmillətli bir ölkə olubdur.

Burada yaşayanların əksəriyyəti azərbaycanlılar, müsəlman dininə itaət edənlərdir, amma eyni zamanda burada xristian dininə itaət edən ruslar da, ermənilər də, yəhudi dininə itaət edən yəhudilər də yaşayıblar. Yəni dini nöqteyi-nəzərdən Azərbaycanda, bizim ölkəmizdə heç bir iğtişaş olmayıbdır. Mən Ermənistan ilə Azərbaycan arasındakı müharibəni heç də dinlə əlaqələndirmirəm. Bu müharibəni Ermənistanın Azərbaycana torpaq iddiası meydana gətiribdir. Mən bunları deyərək, istəyirəm siz biləsiniz ki, indi Azərbaycanda müharibə istəyənlərin sayının artması da təbiidir.

Azərbaycanın prezidenti kimi mənim bu barədə anlayışımla adi adamın anlayışı bir ola bilməz. Amma iş bundadır ki, prezident bir nəfərdir, ancaq 8 milyon əhali var. Siz həmişə demokratiyadan çox danışırsınız. Demokratiyaya görə gərək azlıq çoxluğa tabe olsun. Ona görə mən antidemokratik iş aparıram. Təbiidir ki, mən bunu zarafat naminə deyirəm. Ancaq bilirsiniz ki, hər bir zarafatda bir balaca da həqiqət var.

Bir daha deyirəm ki, mən məsələnin həll olunması yolunda mübarizə aparmışam və sizinlə birlikdə mübarizə aparacağam. Ancaq indi vəziyyət gəlib o mərhələyə çatıb ki, biz konkret nəticələr əldə etməliyik. Ona görə də mənim sizdən xahişim, istəyim, arzum bundan ibarətdir.

İndi əgər başqa sözünüz yoxdursa, biz söhbətimizi dediyiniz kimi, daha məhdud tərkibdə davam etdirə bilərik.

**Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında Saziş**
**(Mərhələli həll)**

**VAHİD ÖMƏROV,**
fəlsəfə üzrə fəlsəfə doktoru

Tərəflər uzun sürən Dağlıq Qarabağ münaqişəsini dincliklə nizama salıb, mövcud atəşkəsi möhkəm sülhə çevirmək əzmində olaraq, regionda sülhün və əməkdaşlığın onların xalqlarının tərəqqisi və firavanlığı üçün önəmliyini təsdiqləyərək, Qafqaz xalqlarına demokratik təsisatlar, rifahın yüksəlməsi və gələcəyə böyük ümid bəslənməsi şəraitində normal və səmərəli həyat sürmək imkanı verməklə bu regionun birgə iqtisadi inkişafı üçün zəmin yaratmaq istəyərək; bu sazişə uyğun olaraq əməkdaşlığın bütün regionda ticarət, nəqliyyat və rabitə sahəsində normal münasibətlərə gətirib çıxaracağını, beynəlxalq təşkilatların köməyi ilə insanlara öz şəhər və kəndlərini bərpa etməyə, regionda xarici kapital qoyuluşlarının xeyli artması üçün lazımi sabitlik yaradılmasına və müqəddəm şərtləri Qafqaz regionunun özündə olan təbii tərəqqinin bütün insanlar üçün əldə edilməsinə doğru aparan qarşılıqlı surətdə faydalı ticarətə yol açmasına və insanlar arasında barışığın və əməkdaşlığın onların çox böyük potensialını qonşularının və dünya xalqlarının firavanlığı üçün sərbəstləşdirməyə imkan verəcəyini dərk edərək, BMT nizamnaməsinin müddəalarına, ATƏT-in əsas prinsiplərinə və qərarlarına, beynəlxalq hüququn hamılıqla tanınmış normalarına və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrinin tamamilə həyata keçirilməsinə sadiq qalaraq, ATƏT-in üzvü olan dövlətlərin münaqişənin dincliklə nizama salınmasında səylərini gücləndirmək və ATƏT-ə kömək etmək barədə 1994-ci ildə Budapeşt sammitində öhdəlik götürdüklərini və onların Minsk konfransının həmsədrlərinə operativ danışıqlar aparmağa dair tapşırıq verdiklərini və silahlı münaqişənin dayandırılması haqqında tərəflər arasında saziş əldə edildikdən sonra BMT Təhlükəsizlik Şurasının müvafiq qətnaməsinin qəbul olunacağı təqdirdə sülhün qorunması üzrə ATƏT-ə çoxmilli qüvvələr verməyə siyasi cəhətdən hazır olduqları barədə bəyanatını xatırladaraq, və Dağlıq Qarabağın qəti statusunu müəyyənləşdirəcək hərtərəfli nizamasalmaya təxirə salınmadan nail olmaq məqsədi ilə sülh prosesini vicdanla davam etdirmək əzmində olaraq, aşağıdakılar barədə öz üzərlərinə öhdəliklər götürürlər:

1. Tərəflər öz aralarındakı mübahisələrin həlli üçün zor işlətməklə hədələməkdən və ya zor işlətməkdən imtina edir və çəkinirlər. Onlar bütün belə mübahisələri, o cümlədən, bu sazişin həyata keçirilməsi ilə əlaqədar yarana biləcək mübahisələri dinc vasitələrlə, ilk növbədə, danışıqlar yolu ilə, o cümlədən, ATƏT-in Minsk prosesi çərçivəsində danışıqlar yolu ilə həll edirlər.

2. Tərəflər öz silahlı qüvvələrini aşağıdakı müddəalara uyğun olaraq və I əlavədə müfəssəl şərh edildiyi kimi çıxarırlar:

a) Birinci mərhələdə qüvvələr Dağlıq Qarabağdan Şərqə və Cənuba doğru uzanan indiki təmas xətti boyunca I əlavədə göstərilmiş xətlərə və bu əlavədə olan cədvələ müvafiq surətdə, ATƏT-in çoxmilli qüvvələrinin ön dəstəsini hərbi nöqteyi-nəzərdən əsaslandırılmış müvəqqəti bufer zonasında ilkin qaydada yerləşdirməyə, tərəfləri bu xətt boyunca ayırmağa və qüvvələrin çıxarılmasının ikinci mərhələsi zamanı təhlükəsizliyi təmin etməyə imkan yaradılması məqsədi ilə yüksək səviyyədə planlaşdırma qrupunun (YSPQ) tövsiyələri lazımınca nəzərə alınmaqla çəkilir.

b) İkinci mərhələdə qüvvələr eyni vaxtda və I əlavədə göstərilmiş cədvələ müvafiq surətdə aşağıdakı qaydada çıxarılır:

1) Ermənistan Respublikasının sərhədləri xaricində yerləşdirilmiş Ermənistanın hər hansı qüvvələri bu sərhədlərin hüdudları daxilinə aparılır.

2) Laçın rayonu istisna olmaqla, Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) 1988-ci il hüdudları daxilinə aparılır.

3) Azərbaycanın qüvvələri YSPQ-nin tövsiyəsinə əsasən I əlavədə göstərilmiş xətdən kənara çıxarılır və Ermənistanın hər hansı ərazisindən çıxarılır.

4) Ağır silahlar YSPQ-nin tövsiyələrinə əsasən ATƏT-in sülhü müdafiə qüvvələrinin müşahidəsi altında, I əlavədə şərh edilmiş şəffaflıq və hesabatvermə tələblərinə əməl edilməklə bu əlavədə göstərilmiş yerlərə aparılır.

3. Qüvvələrin bu cür çıxarılması və yerdəyişməsinin aid olduğu ərazi, II əlavədə müfəssəl şərh olunduğu kimi, bufer zonasının və ayırıcı zonanı əmələ gətirir:

a) Qüvvələrin çıxarılması başa çatdıqdan sonra bufer zonası DQMV-nin 1988-ci il hüdudları, Laçın rayonunun şimal və cənub hüdudları boyunca yerləşir. Bufer zonasında əhali məskunlaşdırılmır və ATƏT-in sülhü müdafiə əməliyyatının elementləri istisna olmaqla, tamamilə silahsızlaşdırılır.

b) 2-ci əlavədə müfəssəl şərh edildiyi kimi, Daimi Qarışıq Komissiya ilə əməkdaşlıq şəraitində fəaliyyət üçün icazə verilmiş qüvvələr, o cümlədən, aşağıda göstərilən qüvvələr istisna olmaqla, ayırıcı zona silahsızlaşdırılır:

1) Sülhü müdafiə əməliyyatının elementləri;

2) Sərhəddə keşik çəkmək və minalardan təmizləmə üçün bölmələr;

3) Say tərkibi və icazə verilmiş silahı II əlavədə müəyyən edilmiş mülki polis.

s) II əlavədə şərh edildiyi kimi, bufer zonasında və ayırıcı zonada uçuşsuz zona yaradılır, ATƏT-in sülhü müdafiə əməliyyatının nəzarəti altında tərəflər bu zonada hərbi uçuşlar keçirilməsinə yol vermirlər.

d) II maddəyə uyğun olaraq qüvvələr çıxarıldıqdan sonra Dağlıq Qarabağın hakimiyyət orqanlarının nəzarət etdikləri bütün yerlərdə təhlükəsizlik Dağlıq Qarabağın mövcud hərbi strukturları və təhlükəsizlik strukturları tərəfindən təmin olunur.

4. ATƏT-in 1994-cü il Budapeşt sammitinin qərarlarına uyğun olaraq tərəflər ATƏT-in çoxmilli sülhü müdafiə əməliyyatını (SMƏ) dəvət edir və onun yerləşdirilməsinə kömək göstərirlər. O, 7-ci maddədə müəyyən olunduğu kimi, Daimi Qarışıq Komissiya və Ermənistan-Azərbaycan hökumətlərarası komissiya ilə əməkdaşlıqda fəaliyyət göstərəcəkdir.

SMƏ qüvvələrin və ağır silahların çıxarılmasına, hərbi uçuşlara yol verilməməsinə, silahsızlaşdırma rejiminin qorunub saxlanmasına və II əlavədə şərh olunduğu kimi, Ermənistan- Azərbaycan sərhədində vəziyyətə nəzarət edir. Tərəflər bu məqsədlərdən ötrü BMT Təhlükəsizlik Şurasını bir ildən az olmayaraq ilkin dövr üçün müvafiq qətnamə qəbul etməyə və lazım gəldikdə, ATƏT-in fəaliyyətdə olan sədrinin tövsiyəsi ilə həmin qətnamənin müddəalarını bərpa etməyə çağırırlar. Tərəflər razıdırlar ki, çoxmilli sülhü müdafiə əməliyyatının ümumi müddəti regiondakı vəziyyətdən və münaqişənin hərtərəfli həllinin sürətindən asılı olaraq,. minimum zərurət həddində olacaqdır. Tərəflər bu sazişin həyata keçirilməsini təmin etmək və sülhü müdafiə əməliyyatının hər hansı şəkildə pozulmasının və ya dayandırılmasının qarşısını almaq üçün SMƏ ilə tam əməkdaşlıq edirlər.

5. Tərəflər II əlavədə şərh olunduğu kimi, köçkün şəxslərin ayırıcı zonadakı öz əvvəlki daimi yaşayış yerlərinə təhlükəsiz və könüllü qayıtmalarına kömək edirlər. Bu zonada silahsızlaşdırma rejiminə əməl olunacağına bütün tərəflərdə inam yaratmaq üçün Daimi Qarışıq Komissiya ilə əməkdaşlıq şəraitində SMƏ-yə qayıdan əhalinin təhlükəsizliyinə göz qoyur. Tərəflər bu sazişlə və ya hərtərəfli nizamasalma ilə əhatə olunmuş Ermənistanla Azərbaycan arasında münaqişə və gərginlik nəticəsində 1987-ci ildən sonra köçmüş şəxslərdən savayı, qalan digər şəxslərin tezliklə təhlükəsiz şəraitdə və könüllü şəkildə qayıtmalarının həyata keçirilməsi haqqında danışıqlar aparırlar.

6. Qüvvələrin çıxarılması ilə eyni zamanda, tərəflərin yolların, dəmir yollarının, elektrik və rabitə xətlərinin açılması, ticarət münasibətlərinin və digər münasibətlərin bərpası məqsədi ilə bütün tədbirləri, o cümlədən, buna mümkün qədər qısa müddətdə nail olmaq üçün bütün lazımi işləri III əlavədə şərh edilmiş cədvələ və konkret müddəalara müvafiq surətdə dərhal həyata keçirirlər. Tərəflər, etnik azlıqlar da daxil olmaqla, hamının bu əlaqələrdən istifadə etməsinə təminat verir, bu azlıqların regionun digər yerlərindəki öz etnik qrupları ilə ünsiyyətdə olmasını təmin edirlər. Tərəflərdən hər biri bütün blokadaları aradan qaldırmağı, yüklərin, adamların bütün digər tərəflərə maneəsiz daşınmasını təmin etməyi öhdəsinə götürür. Tərəflər öz aralarında sərbəst və təhlükəsiz dəmiryol əlaqəsinə təminat verirlər.

7. Tərəflər münaqişə ilə əlaqədar tutulub saxlanılan bütün şəxslərin tezliklə və təhlükəsiz qayıtmasının, itkin düşmüş şəxslərin taleyinin araşdırılması və bütün cənazələrin qalıqlarının qaytarılmasının, yenidənqurma məqsədləri ilə ayrı-seçkilik qoyulmadan humanitar yardımın və köməyin Beynəlxalq Qızıl Xaç Komitəsinin, BMT-nin qaçqınların işləri üzrə ali komissarlarının və digər beynəlxalq təşkilatların nəzarət etdikləri ərazidən münaqişə zamanı zərər çəkmiş rayonlara çatdırılmasının təmin olunması üçün onlarla tam əməkdaşlıq edirlər. Tərəflər etimadı möhkəmlətmək tədbirlərinin həyata keçirilməsində Daimi Qarışıq Komissiya vasitəsilə ATƏT-in SMƏ təşkilatı ilə əməkdaşlıq edirlər.

8. Tərəflər bu sazişin Azərbaycana və Dağlıq Qarabağa aid problemlər barəsində müddəalarının həyata keçirilməsinə nəzarət etmək üçün dərhal Daimi Qarışıq Komissiya (DQK) yaradırlar. DQK-nın sədri ATƏT-in fəaliyyətdə olan sədrinin nümayəndəsidir, sədrin bir müavini Azərbaycandan, digəri isə Dağlıq Qarabağdandır. DQK-nin əsas vəzifəsi sazişin həyata keçirilməsinə nəzarət etmək, ATƏT-dən əlan sədrin vəzifələrinə fikir ayrılıqları zamanı vasitəçilik etmək və təbii fəlakətlər kimi fövqəladə hallarda tədbirlər görülməsinə sanksiya verməkdən ibarətdir. DQK-nın hərbi, iqtisadi, humanitar,. mədəni və rabitə üzrə yardımçı komissiyaları olur. DQK-nın strukturu, funksiyaları və ona aid başqa təfərrüatlar IV əlavədə şərh edilmişdir.

9. Tərəflər Ermənistanla Azərbaycan arasında sərhəd toqquşmalarının qarşısının alınmasına kömək edilməsi, hər iki ölkənin sərhəd qoşunları və digər müvafiq təhlükəsizlik qüvvələri arasında əlaqələr qurulması, yolların, dəmir yolların, rabitənin, boru kəmərlərinin açılmasına, ticarət münasibətlərinin və başqa münasibətlərin bərpası tədbirlərinə nəzarət olunması və bu tədbirlərə kömək göstərilməsi üçün dərhal

Ermənistan-Azərbaycan Hökumətlərarası Komissiyası (EAHK) yaradırlar. EAK-nın iki həmsədri olur: biri Ermənistandan, digəri Azərbaycandan. Komissiyaya ATƏT-in fəaliyyətdə olan sədrinin təyin etdiyi nümayəndə daxildir. EAHK-nın strukturu, funksiyaları və ona aid digər təfərrüatlar 5-ci əlavədə şərh olunmuşdur. Azərbaycan Respublikası və Ermənistan Respublikası bir-birlərinin paytaxtlarında əlaqə büroları yaradırlar.

10. Azərbaycan Respublikası və Ermənistan Respublikası hərbi tarazlıq və Avropada adi silahlı qüvvələr haqqında müqaviləyə tam əməl edilməsi də daxil olmaqla, regionda təhlükəsizliyin artmasını təmin etmək məqsədi ilə müvafiq beynəlxalq və regional forumlarda ikitərəfli və çoxtərəfli danışıqlara qoşulurlar.

11. Bu müqavilədə üç tərəf münaqişənin hərbi cəhətinə son qoyaraq, Dağlıq Qarabağın statusununun müəyyənləşdirilməsini, Laçın, Şuşa və Şaumyan problemlərinin həllini əhatə edən siyasi cəhət də daxil olmaqla, münaqişənin bütün başqa cəhətlərinin hərtərəfli həllinə təxirəsalınmadan nail olmaq üçün Minsk konfransı həmsədrlərinin və müvafiq surətdə ATƏT-in fəaliyyətdə olan sədrinin dəvət etdiyi digər tərəflərin köməyi ilə danışıqları vicdanla davam etdirməyə razılaşırlar; danışıqlar yolu ilə nizamasalmaya nail olduqdan və yuxarıda göstərilən üç tərəf onu imzaladıqdan sonra belə nizamasalma mümkün qədər tezliklə çağırılan Minsk konfransında beynəlxalq birlik tərəfindən tanınmalıdır.

12. Tərəflərdən hər biri digər tərəflərin və onların əhalisinin təhlükəsizliyinə tamamilə hörmət edir. Tərəflər öz xalqları arasındakı ticarətə və normal qarşılıqlı fəaliyyətə kömək göstərərək, onların arasında mehriban qonşuluq münasibətlərini inkişaf etdirməyi və bu sazişi, yaxud xoş münasibətləri sarsıda biləcək bəyanatlardan və ya hərəkətlərdən çəkinməyi öhdələrinə götürürlər.

13. Sülhün qorunması və qoşunların çıxarılmasına nəzarət barədə yuxarıda şərh edilmiş konkret müddəalara əlavə olaraq və ATƏT-in müvafiq prinsiplərini və öhdəliklərini, o cümlədən, 1992- ci ilin Helsinki sənədində və 1994-cü ilin Budapeşt sənədində əksini tapmış prinsipləri və öhdəlikləri xatırladaraq, ATƏT bu sazişin bütün cəhətlərinin tamamilə həyata keçirilməsinə müvafiq mexanizmlər vasitəsilə nəzarət edir və sazişin şərtlərinin pozulmasının qarşısını almaq və belə hallara mane olmaq üçün həmin prinsiplərə və qərarlara uyğun olaraq müvafiq tədbirlər görür. Bu sazişin şahidləri ATƏT-in Daimi Şurası və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası vasitəsilə fəaliyyət göstərərək, onun tam şəkildə həyata keçirilməsinə kömək edirlər. Bu saziş ciddi şəkildə pozulduğu təqdirdə, onlar zəruri tədbirlər barəsində öz aralarında məsləhətləşir, ATƏT-in fəaliyyətdə olan sədrinə, Birləşmiş Millətlər Təşkilatı Şurasının sədrinə və Birləşmiş Millətlər Təşkilatının baş katibinə dərhal məlumat verir və ATƏT-in Daimi Şurasından, yaxud BMT-nin Təhlükəsizlik Şurasından bununla əlaqədar müvafiq hərəkətləri nəzərdən keçirməyi xahiş edirlər.

**“Səs”.**-2013.-9 iyun.-№ 123.-S.15.

**Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ATƏT-in fəaliyyəti**

**VAHİD ÖMƏROV,**
fəlsəfə üzrə fəlsəfə doktoru

1988-ci ildən başlayaraq, Ermənistan tərəfindən Azərbaycanın aşağıdakı əraziləri işğal edilmişdir:

1. Azərbaycanın Dağlıq Qarabağ regionu - ərazisi 4.388 kv.km, əhalisi 52.000 (azərbaycanlı) nəfər. 244 yaşayış məntəqəsindən 241-i zəbt olunmuşdur. Qaçqınların sayı 52.000 nəfərdir;
2. Laçın rayonu - ərazisi 1.835 kv.km. əhalisi 59.500 nəfər. 123 yaşayış məntəqəsinin hamısı işğal olunmuşdur, Qaçqınların sayı - 59.500 nəfərdir;
3. Kəlbəcər rayonu -ərazisi 1.936 kv.km, əhalisi 62.000 nəfər, 127 yaşayış məntəqəsinin hamısı işğal olunmuşdur. Qaçqınların sayı - 62.000 nəfərdir;
4. Ağdam rayonu - ərazisi 1.093 kv.km, əhalisi 158.000 nəfər, 120 yaşayış məntəqəsindən 96-sı zəbt edilmişdir. Qaçqınların sayı 123.000 nəfərdir;
5. Füzuli rayonu - ərazisi 1.386 kv.km, əhalisi 100.000 nəfər. 77 yaşayış məntəqəsinin hamısı işğal olunmuşdur. Qaçqınların sayı 100.000 nəfərdir;
6. Cəbrayıl rayonu - ərazisi 1.050 kv.km, əhalisi 51.600 nəfər, 97 yaşayış məntəqəsinin hamısı işğal olunmuşdur. Qaçqınların sayı 51.600 nəfərdir;
7. Qubadlı rayonu - ərazisi 802 kv.km, əhalisi 30.300 nəfər, 95 yaşayış məntəqəsinin hamısı zəbt olunmuşdur. Qaçqınların sayı 30.300 nəfərdir.
8. Zəngilan rayonu - ərazisi 707 kv.km, əhalisi 33.900 nəfər, 83 yaşayış məntəqəsinin hamısı işğal olunmuşdur. Qaçqınların sayı 33.900 nəfərdir;
9. Qazax rayonu - ərazisi 699 kv.km, əhalisi 78.800 nəfər, 75 yaşayış məntəqəsinin təxminən 8%-i işğal olunmuşdur. Qaçqınların sayı 6.500 nəfərdir;

10. Naxçıvan Muxtar Respublikası - ərazisi 5.368 kv.km, əhalisi 328.900 nəfər, 221 yaşayış məntəqəsindən 1-i və Sədərək rayonunun ərazisinin bir hissəsi (0,5%) zəbt olunmuşdur. Qaçqınların sayı 347 nəfərdir.

Beləliklə, Ermənistanın hərbi təcavüzünə yekun vursaq, Azərbaycanın 17.000 kv.km ərazisinin (Azərbaycan ərazisinin təxminən 20%-i) işğal olunduğunun, 30.000 mindən artıq azərbaycanlının öldürüldüyünün və 200.000- dən çox yaralandığını, 1 milyondan çox qaçqın ordusunun yarandığının şahidi olarıq. İndi dünyanın elə bir məmləkəti yoxdur ki, qaçqınlarının sayının ölkə əhalisinə nisbəti Azərbaycanda olduğu qədər olsun.

1994-cü il mayın 12-də Azərbaycanla Ermənistan arasında atəşkəs rejimi elan olundu. Atəşkəsin elan olunması münaqişənin həlli demək deyildi, sadəcə olaraq, tərəflər hərbi əməliyyatları dayandırmaqla beynəlxalq təşkilatlara, xüsusilə də, münaqişə ilə birbaşa məşğul olan ATƏT-in Minsk Qrupuna münaqişənin tənzimlənməsi ilə bağlı operativ işləməsinə şərait yaratmış oldular. Münaqişənin danışıqlar yolu ilə nizamlanması təşəbbüsünə başladığı andan keçən dövrdə Ermənistanın təcavüzkar əməllərindən əl çəkməməsinə baxmayaraq ATƏT danışıqlar prosesini gücləndirməyə səy göstərirdi. 1994-cü ilin 6 dekabr tarixində keçirilən ATƏT-in Budapeşt sammitinə əsasən Minsk konfransı həmsədrlərinin institutu (əvvəlcə Rusiya və Finlandiya, 1997-ci ildən isə Fransa, Rusiya və ABŞ) yaradıldı. Onların öhdəsinə düşən vəzifə silahlı münaqişənin sona yetməsi ilə bağlı siyasi razılaşmanın imzalanması üçün operativ olaraq danışıqlar aparılmasından və sonrakı mərhələdə Minsk konfransının çağırılması üçün şərait yaradılmasından ibarət idi. Beləliklə, Budapeşt sammitinin işi zamanı münaqişənin tənzimlənməsi prosesinin iki mərhələdə strukturunun müəyyən edilməsi başa çatdı:

1. Razılaşmaların həyata keçirilməsi yolu ilə silahlı münaqişənin nəticələrinin aradan qaldırılması. Bu, o deməkdir ki, zəbt olunmuş bütün

ərazilər boşaldılır və köçkünlərin öz daimi torpaqlarına qayıtması təmin olunur.

2. Minsk konfransının işi nəticəsində münaqişənin tam əhatəli sülh yolu ilə tənzimlənməsi razılığı əldə olunur.

Budapeşt sammitindən sonra münaqişə tərəfləri ilə danışıqların 17 raundu və çoxsaylı məsləhətləşmələr aparıldı. Bu müddət ərzində sazişin mətninin 75%-i hazırlanmışdı. Lakin Şuşa və Laçın rayonları daxil olmaqla bütün ərazilərin boşaldılması, münaqişə iştirakçılarının təhlükəsizliyi və Ermənistan silahlı qüvvələri bölmələrinin Azərbaycan ərazisindən çıxarılması kimi prinsipial məsələlər ucbatından razılaşdırıla bilmədi.

1996-cı ilin 2 dekabr tarixində keçirilən Lissabon sammitində ATƏT-in icraçı sədrinin bəyanatında münaqişənin üç prinsip əsasında tənzimlənməsi öz əksini tapdı:

- Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü;

- Razılaşmada müəyyən edilmiş öz müqəddəratını təyin etməyə əsaslanan, Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək özünüidarə dərəcəsi verən Dağlıq Qarabağın hüquqi statusu;

- Qarşılıqlı öhdəliklər daxil olmaqla tənzimləmə müddəalarına bütün tərəflərin riayət etməsi və Dağlıq Qarabağın, eləcə də, onun bütün əhalisinin təminatlı təhlükəsizliyi.

Bu prinsiplər Ermənistandan başqa ATƏT-in 53 dövləti tərəfindən dəstəkləndi. Tədqiqatçı A.Məmmədov yazır ki, 1997-ci ildən başlayaraq bu vaxta qədər ATƏT-in Minsk Qrupu tərəflərə münaqişənin nizamlanması ilə bağlı 3 sənəd təqdim etmişdir. "Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş" adlanan birinci sənəd münaqişə tərəflərinə həmsədrlər tərəfindən 1997-ci il iyun ayının 11-də təqdim edildi. Həmin sənəd daha çox paket həlli kimi tanınır və bir paketdə birləşdirilən iki anlaşmadan ibarətdir. Anlaşmalardan birincisi silahlı münaqişənin dayandırılmasına, ikincisi isə Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsinə həsr olunmuşdur.

Paket həlldə Azərbaycanı təmin etməyən və ATƏT-in Minsk Qrupunun həmsədrlərinin diqqətinə çatdırılan bir sıra ciddi məqamlar vardır. Hər şeydən əvvəl sənədin BMT-nin məlum qətnamələrinə əsaslanmaması və hüquqi baxımdan icbari xarakter daşınması narazılıq doğururdu. O biri tərəfdən, işğal olunmuş ərazilərin boşaldılması ilə status məsələsinin qarşılıqlı şəkildə əlaqələndirilməsi əslində münaqişənin həllini uzun bir prosesə çevirirdi. Çünki sənəddə münaqişənin aradan qaldırılmasının dəqiq mexanizmi və konkret zaman çərçivəsi öz əksini tapmamışdı. Bir çox məsələlərin həlli "Daimi qarışıq komissiya"nın öhdəsinə buraxılırdı. Həmin komissiyanın qərarlarının işlənib hazırlanması isə bu sənədin çərçivəsindən kənarda nəzərdə tutulur. Bir sözlə, münaqişə tərəflərinə özündə dəqiq öhdəlikləri ehtiva edən hüquqi sənəddən daha çox gələcək danışıqların əsas istiqamət və tezislərini əks etdirən ümumi bəyannamə təqdim olunmuşdu.

Paket təklifindəki Laçın və Şuşa ilə bağlı müddəalar, habelə, gələcəkdə ermənilərin Azərbaycanın keçmiş Şaumyan rayonuna qaytarılmaları ilə bağlı təklif də Azərbaycan tərəfindən birmənalı şəkildə qarşılanmadı. Digər tərəfdən, münaqişə başlayana qədər Dağlıq Qarabağın 56 yaşayış məntəqəsinin yerli əhalisini təşkil etmiş 50 minlik azərbaycanlının gələcək taleyi də Azərbaycan tərəfinin diqqətindən kənarda qala bilməzdi.

Paket təklifinin Dağlıq Qarabağın statusu ilə bağlı olan II hissəsi isə regionun Azərbaycanın tərkibində özünüidarə statusu konsepsiyası ilə bir araya sığışmadığından Azərbaycan tərəfindən etirazla qarşılanmış və həmsədrlərdən bu mühüm məqama aydınlıq gətirmək tələb olunmuşdu. Bütünlüklə həmin dövrdə paket təklifi Azərbaycan tərəfdən yalnız taktiki mülahizələrlə danışıqlar prosesinə başlamaq və Ermənistanın mövqelərini ümumi şəkildə də olsa müəyyənləşdirmək məqsədilə əsas olaraq qəbul edilmişdi.

Lakin sənəd hətta bu şəkildə də ermənilər tərəfindən qəbul olunmadı və bununla da qarşı tərəfin dialoqa hazır olmadığını bir daha göstərdi.

Sənədlər təqdim olunduqdan az sonra həm Ermənistan, həm də Dağlıq Qarabağ erməniləri onu prinsipial olaraq qəbul etməyəcəklərini bildirdilər. Onlar öz fikirlərini bu sazişin ATƏT-in Lissabon sammitinin prinsipləri əsasında hazırlanması, həmin prinsiplərin isə sammit zamanı Ermənistan tərəfindən qəbul olunmaması ilə izah etdilər. Eyni zamanda, Dağlıq Qarabağın Azərbaycan Respublikasının tərkibində olması da erməni tərəfini qane etmirdi. Status məsələsinin ATƏT-in Minsk konfransında müzakirə və həll olunacağı barəsində əvvəllər əldə olunmuş razılığa əsaslanaraq onlar ilkin mərhələdə status məsələsinin gündəliyə gətirilməsini yolverilməz saydılar. Bunun da nəticəsində Ermənistan tərəfi Minsk Qrupu həmsədrlərindən münaqişənin iki mərhələdə həlli ilə bağlı variant tələb etməyə başladı. Əslində, təqdim olunan həll variantı Azərbaycan tərəfini də qane etmirdi.

A.Məmmədovun fikrincə, təqdim olunan sənədə Ermənistan tərəfin etirazından sonra Minsk Qrupu həmsədrləri 1997-ci il sentyabrın 19-da "Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında saziş" (Mərhələli həll) layihəsini münaqişə tərəflərinə təqdim etdilər. Həmin sənədin üzərində Minsk Qrupu həmsədrləri tərəfindən əlavə və düzəlişlər aparılmış 2 dekabr tarixli sonuncu variantı mətbuatda çap olundu.

Mərhələli həll planı Azərbaycan Respublikası üçün daha məqbul hesab olundu. Çünki bu plan ardıcıl şəkildə silahlı münaqişənin nəticələrinin aradan qaldırılmasına və sonrakı mərhələdə ATƏT-in Minsk konfransında Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsinə yönəldilmişdi. Azərbaycan bu planı həyata keçirərkən birinci mərhələdə ATƏT-in sülhməramlı qüvvələrinin regionda yerləşdirilməsini, hərbi-texniki xarakterli tədbirlər sistemi əsasında münaqişə zonasında hərbi gərginliyin aradan qaldırılmasını, işğal edilmiş Ağdam, Füzuli, Zəngilan, Kəlbəcər, Cəbrayıl və Qubadlı rayonlarının azad edilməsini, bu rayonlardan qaçqın düşmüş əhalinin öz yerlərinə qaytarılmasını, münaqişə zonasında bütün əsas kommunikasiyaların fəaliyyətinin normallaşdırılmasını, ikinci mərhələdə isə bir tərəfdən Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsini, o biri tərəfdən isə Laçın, Şuşa və keçmiş Şaumyan rayonları ətrafında vəziyyətin nizama salınmasını əsas tuturdu. Həm də bu zaman hər bir punktun həyata keçirilməsinin dəqiq mexanizminin və konkret zaman çərçivəsinin müəyyənləşdirilməsi və bu prinsipləri pozan tərəflərə sanksiyaların tətbiqi nəzərdə tutulurdu. Təbii ki, digər təkliflər kimi, "Mərhələli həll" təklifində də Azərbaycan tərəfini qane etməyən bir sıra müddəalar var idi. Bu, ilk növbədə, Dağlıq Qarabağın

azərbaycanlı əhalisi, Laçın dəhlizi və s. bağlı məsələlər idi. Lakin bu çatışmazlıqlara baxmayaraq, Azərbaycan 1997-ci ilin oktyabrında "Mərhələli həll" təklifinin danışıqlara başlamaq üçün əsas kimi qəbul olunmasına öz razılığını bildirdi.

Ermənistanda da hadisələr ilk vaxtlar məqbul ssenari üzrə cərəyan etdi: sentyabrın 26-da Ermənistanın prezidenti L.Ter-Petrosyan mətbuat konfransı keçirərək "Mərhələli həll" variantı ilə bağlı öz ölkəsinin mövqeyini açıqladı. Oktyabrın 10-da isə Azərbaycan və Ermənistan prezidentlərinin Strasburqda keçirilən görüşündə birgə bəyanat qəbul olundu. Həmin bəyanata əsasən tərəflər Minsk Qrupunun formatının saxlanmasına razılıq verdi və həmsədrlərin "Mərhələli həll" təklifini qəbul etdiklərini bildirdilər. Atəşkəs elan olunduqdan sonra ilk dəfə olaraq, münaqişənin aradan qaldırılması ilə bağlı müsbət meyillər yaranmışdı.

Lakin oktyabrın 26-da "DQR" adlanan qondarma qurumun "prezidenti" Qukasyan "Azadlıq" radiosuna müsahibə verərək "Mərhələli həll" təklifinin qəbuledilməz olduğunu bəyan etdi. Onun fikrincə, belə bir həll zamanı regiondakı hərbi-siyasi balans Azərbaycanın xeyrinə dəyişəcək, öz statusuna beynəlxalq və hüquqi zəmanətlər ala bilməmiş Dağlıq Qarabağın təhlükəsizliyi üçün real təhlükə yaranacaq. Azərbaycan bufer zona rolunu oynayan işğal ərazilərdə möhkəmlənərək yenidən hərbi əməliyyatlara başlayacaq və Dağlıq Qarabağın müstəqilliyinə son qoyaraq onu bir qurum kimi ləğv edəcək.

**“Səs”.-**2013.-19 iyul.-№131.-S.15.